## Akar: "Türkiyə Azərbaycanın haqq işini dəstəkləyir"



**Türkiyə Azərbaycanın haqq işini dəstəkləyir.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə milli müdafiə naziri Hulusi Akarın "30 Avqust Zəfər Bayramı" və Türk Silahlı Qüvvələri Gününə həsr olunmuş müraciətində deyilir.

Nazir türk əsgərinin tarix boyu vətənin keşiyində durduğunu və onun mənafelərini qoruduğunu qeyd edib. "Dostlarımızın, qardaşlarımızın və müttəfiqlərimizin, xüsusən də Azərbaycan və Liviyanın haqq işini dəstəkləyir, həmçinin NATO, Aİ, BMT, ATƏT və ikitərəfli razılaşmalar çərçivəsində Qətər, Somali, Kosovo və Bosniya və Herseqovinada uğurla xidmət edərək regional və dünya sülhünə töhfə veririk", - deyə Akar vurğulayıb.



## İran Ermənistana yeni elektrik ötürücü xəttini işə salıb

**İranın Şərqi Azərbaycan vilayətində Ermənistana elektrik ötürücü xəttinin açılışı olub.**

APA IRNA-ya istinadən xəbər verir ki, 90 kilometrlik Heris-Meğri elektrik ötürücü xətti İrandan Ermənistana 400 kilovatsaat elektrik enerjisi ixrac edəcək.


❒ № 154 (5676), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 avqust 2022-ci il (çərşənbə axşamı)




## FHN və DİN-ə yeni səlahiyyət verilib

### Əkin yerinin yandırılmasına görə cərimələr tətbiq olunacaq

**Fövqəladə Hallar Nazirliyi (FHN) və Daxili İşlər Nazirliyinə (DİN) yeni səlahiyyət verilib.**

Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.

Fərmana dəyişikliklə Məcəllənin 244-1-ci maddəsində (Əkin yerinin yandırılması) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Fövqəladə Hallar Nazirliyi (FHN), Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində İqtisadiyyat Nazirliyi və ya Kənd Təsərrüfatı Nazirliyi baxacaq.



## Türkiyə Prezidenti MÜSİAD Azərbaycan üzvlərini mükafatlandırıb

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi (MÜSİAD) Azərbaycan üzvlərini mükafatlandırıb.**

Bu barədə MÜSİAD-dan daxil olan məlumatda bildirilib.

Məlumata əsasən, Prezident Ərdoğan dünyanın ən yaxşı 250 podratçısı arasında yer alan, MÜSİAD Azərbaycan üzvü "Bayburt Grup"u və "Pro yapı" şirkətini mükafatlandırıb.

Qeyd edək ki, "Bayburt Grup" tam olaraq səkkizinci dəfə dünyanın ən yaxşı şirkətləri arasında yer alıb.

Bundan əlavə, "Pro" Tikinti mühəndisləri və konsaltinq şirkəti də podratçı işlər üzrə xidmətlərə görə ən uğurlu şirkətlər arasında yer alır.

Məlumat üçün qeyd edək ki, MÜSİAD-ın 81 ölkədə, 164 məntəqədə ümumilikdə 12 mindən çox üzvü, Türkiyədə isə 83 şöbəsi var.

## Rusiya qüvvələri Nikolayev şəhərinə zərbələr endirib

### 2 mülki şəxs həlak olub, 11 nəfər yaralanıb



**Rusiya hərbi qüvvələri Ukraynanın Nikolayev şəhərinə zərbələr endirib, ölənlər var.**

APA "Ukrinform"a istinadən xəbər verir ki, bu barədə şəhərin meri Oleksandr Senkeviç və regional hərbi administrasiyanın rəhbəri Vitali Kim bildirib.

Verilən məlumata görə, Rusiya qüvvələrinin şəhərdəki bir neçə yaşayış binasına endirdiyi zərbələr nəticəsində 2 mülki şəxs həlak olub, 11 nəfər yaralanıb.

Vitali Kim vətəndaşları sığınacaqlarda qalmağa çağırıb.

"Düşmən yenidən zərbə endirməyə hazırlaşır. Hər kəsdən xahiş edirəm ki, sığınacaqlarda qalmağa davam etsinlər. Avtomobillərdə səyahət etməyin".

# Paşinyan Brüsseldə İlham Əliyevdən möhlət istəyəcək

### Budəfəki müzakirələrdən Bakı böyük üstünlüklə çıxacaq



**Avqustun 31-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında sülh danışıqlarının növbəti raundunun keçirilməsi gözlənilir. Budəfəki müzakirə məsası Avropa İttifaqının səyi və təşəbbüsü ilə qurulacaq və sülh gündəliyinin keyfiyyətcə yeni mərhələsini özündə əks etdirəcək.**

Ekspertlərin fikrincə, liderlərin Brüssel görüşü və müzakirə olunacaq məsələlər avqust ayı ərzində Azərbaycanın öz xeyrinə çevirdiyi iki hadisənin bundan sonra əldə olunacaq nəticələrlə sinxronlaşdırılması baxımından önəmlidir. İlk olaraq Azərbaycan Ordusu "Qisas" əməliyyatı ilə antiterror əməliyyatının presedentini əyani şəkildə göstərdi. Digər yandan Azərbaycan 10 noyabr Bəyanatında nəzərdə tutulan Laçın dəhlizinə alternativ marşrutun tikintisi ilə erməni əhalinin Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxışını təmin etdi. Bu həm də Rusiyanın sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən çıxarılmasına aid əsas nümunə kimi də qiymətləndirilməlidir.

(səh.2)

# Bütün güclər regiondakı reallıqlarla barışmalıdır

### ABŞ və Fransa Cənubi Qafqazda sülhə əngəl ola bilməz



**Avqustun 27-də Şuşada Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası, postmüharibə dövründə şəhərsalma potensialından istifadə və beynəlxalq əməkdaşlıq imkanlarına həsr olunmuş konfrans keçirilib.**

Konfransa Azərbaycanda akkreditə olunmuş səfirlər, beynəlxalq diplomatik korpusun digər nümayəndələri, hərbi attaşelər daxil olmaqla ümumilikdə 160-dan çox təmsilçi qatılıb. Lakin ABŞ və Fransa diplomatları tədbirdə olmaqdan imtina edib. İki ölkə səfirinin bu davranışı Azərbaycan rəsmiləri tərəfindən çox sərt qarşılanıb və rəsmi Bakıya hörmətsizlik sayılıb.

(səh.2)



## Gələn il qlobal taxıl böhranı yaşanacaq

### Azərbaycan bütün imkanlarını səfərbər etməlidir

**Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra dərinləşən taxıl qıtlığı fonunda ölkələr yerli istehsalı daha çox artırmağa başlayıb.**

2022-ci ildə taxıl istehsalının artırılması və əkin sahələrinin genişləndirilməsi Azərbaycan üçün də priotetdir. Ölkəmiz üçün ehtiyatların artırılması və idxalın əvəzlənməsi daha da aktuallaşmaqdadır. Artıq Azərbaycanda dənli və dənli paxlalı bitkilərin kütləvi biçini başa çatmaq üzrədir.

(səh.2)

## Vəfat edən olmayıb

### Azərbaycanda daha 132 nəfər COVID-19-a yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 132 yeni yoluxma faktı qeydə alınıb, 148 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 812 248 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 798 867 nəfər müalicə olunaraq sağalıb, 9 805 nəfər vəfat edib, aktiv xəstə sayı 3 576 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 841 , hazırkı dövrədək isə 7 147 186 test aparılıb.*

## BQXK-nın Azərbaycandakı yeni nümayəndəsi vəzifəsinin icrasına başlayıb



**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin yeni rəhbəri Draqana Kojiç vəzifəsinin icrasına başlayıb.**

Bu barədə "Report" qurumun Azərbaycandakı Nümayəndəliyindən məlumat əldə edib.

*Qeyd edək ki, D.Kojiç bu postda Azərbaycanda səlahiyyət müddəti başa çatan Arian Baueri əvəzləyib. O, bundan əvvəl BQXK-nın Pakistandakı Nümayəndəliyinin rəhbəri vəzifəsində çalışıb.*



## Bütün ərazilər minalardan təmizlənəcək

### Laçında Azərbaycanın güc strukturları ciddi işə başlayacaq

(səh.2)

## Tələbləri sadələşdirmək lazımdır

### Övladlığa uşaq götürmək istəyən şəxslər çoxdur



(səh.4)



# Paşinyan Brüsseldə İlham Əliyevdən möhlət istəyəcək

## Budəfəki müzakirələrdən Bakı böyük üstünlüklə çıxacaq

**Avqustun 31-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında sülh danışıqlarının növbəti raundunun keçirilməsi gözlənilir. Budəfəki müzakirə masası Avropa İttifaqının səyi və təşəbbüsü ilə qurulacaq və sülh gündəliyinin keyfiyyətcə yeni mərhələsini özündə əks etdirəcək.**

Ekspertlərin fikrincə, liderlərin Brüssel görüşü və müzakirə olunacaq məsələlər avqust ayı ərzində Azərbaycanın öz xeyrinə çevirdiyi iki hadisənin bundan sonra əldə olunacaq nəticələrlə sinxronlaşdırılması baxımından önəmlidir. İlk olaraq Azərbaycan Ordusu "Qisas" əməliyyatı ilə antiterror əməliyyatının presedentini əyani şəkildə göstərdi. Digər yandan Azərbaycan 10 noyabr Bəyanatında nəzərdə tutulan Laçın dəhlizinə alternativ marşrutun tikintisi ilə erməni əhalinin Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxışını təmin etdi. Bu həm də Rusiyanın sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən çıxarılmasına aid əsas nümunə kimi də qiymətləndirilməlidir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Azərbaycan mühəribəni dayandıran bəyanatın bəndlərinin istisnasız icra edilməsi şərtlərini və prosesin yubadılmasına cəhdlərin mənasız olduğunu praktiki şəkildə göstərib.** Analitik vurğulayıb ki, Azərbaycan üçün Qarabağ məsələsi artıq xarici siyasət istiqamətindən daxili tənzimləmə mexanizminə çevrilib: "Ona görə də sərhədlərin müəyyən edilməsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi mövzusu danışıqların prioritetlərində ön səfdə dayanacaq. Sərhədlərin delimitasiyasına dair tələblərimiz Bakının diktəedici şərtlərinin miqyasının genişlənməsi, Türkiyənin strateji dəstəyi, Rusiyanın Bakı ilə tərəfdaşlığı, Qərbin reallıqlarla barışması fonunda daha da konkretləşir. Azərbaycan yaranmış fürsətləri və regionda gedən prosesləri böyük məharətlə öz xeyrinə dəyişdirdiyindən sərhədlərə baxış bucağını da böyütməsi siyasi müstəvidə normal qarşılanmalıdır. Ermənistan sərhəd mövzusunda diqqətli olmalıdır. O mənada ki, iki dövləti ayıracaq zolaq boyunca hər hansı təxribatın cavabı İrəvan üçün daha sarsıdıcı ola bilər. İlk olaraq nəzərə almaq lazımdır ki, artıq Azərbaycanın Laçın və Kəlbəcərdəki mövqeləri Ermənistanın taktiki və strateji dərinliklərinin vizual-kəşfiyyat nəzarəti altında saxlanılmasını təmin edir. Digər tərəfdən Naxçıvanın Ermənistanla sərhəd zonasında da ordumuzun hərbi-taktiki üstünlüyünü təmin edən mövqelərdə bərkimə işləri həyata keçirilib. Bu, paytaxt İrəvana doğru açılan qapıdır".

**A.Kərimova görə, İrəvan başı üzərində Azərbaycanın təsirini, strateji ağırlığını hiss etməkdədir:** "Paşinyan danışıqlarda Azərbaycandan möhlət istəmək məcburiyyətini bir daha nümayiş etdirəcək. Ancaq Paşinyan möhləti Azərbaycana qarşı vaxt uzatmaq həddinə gətirməməlidir. Buna görə də konkret vəd verməli və sərhədlərin delimitasiyasından məqsədyönlü yayınmayacağını bildirməlidir. Paralel olaraq isə Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçəcək hissəsinin inşasına, qrafikinə dair cədvəli təqdim etməlidir. Brüssel danışıqlarının xarakteristikası və bunun nəticələri Azərbaycanın xeyrinə doğru sürətlə dəyişən başqa prosesləri gündəmə gətirəcək. Paşinyan Azərbaycanın əlinə digər strateji imtiyazlar vermək məcburiyyətində qalacaq".

İsmayıl Qocayev

# Bütün güclər regiondakı reallıqlarla barışmalıdır

## ABŞ və Fransa Cənubi Qafqazda sülhə əngəl ola bilməz



Bir müddətdən sonra bu ölkənin səfirləri Şuşaya da, Laçına da səfər edəcəklər

**Avqustun 27-də Şuşada Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası, postmüharibə dövründə şəhərsalma potensialından istifadə və beynəlxalq əməkdaşlıq imkanlarına həsr olunmuş konfrans keçirilib.**

Konfransa Azərbaycanda akkreditə olunmuş səfirlər, beynəlxalq diplomatik korpusun digər nümayəndələri, hərbi attaşelər daxil olmaqla ümumilikdə 160-dan çox təmsilçi qatılıb. Lakin ABŞ və Fransa diplomatları tədbirdə olmaqdan imtina edib. İki ölkə səfirinin bu davranışı Azərbaycan rəsmiləri tərəfindən çox sərt qarşılanıb və rəsmi Bakıya hörmətsizlik sayılıb. Prezident köməkçisi Hikmət Hacıyev bildirib ki, dəfələrlə dəvət olunmalarına baxmayaraq, ABŞ və Fransa səfirləri Şuşaya səfər etməkdən imtina ediblər. H.Hacıyevin sözlərinə görə, bu, onların "Azərbaycanın ərazi bütövlüyünü tanımaması" kimi qiymətləndirilməlidir. Gözlənildiyi kimi ABŞ-ın Azərbaycandakı səfirliyi tənqidlərə cavab verib. Açıqlamada qeyd olunub ki, "Amerika Birləşmiş Ştatları səfirliyinin əməkdaşları Ağdam, Zəngilan və Füzuli də daxil olmaqla, Azərbaycanın bütün bölgələrinə geniş şəkildə səfərlər ediblər və etməkdə davam edirlər". Göründüyü kimi, söhbət Şuşa səfərindən imtinadan getdiyi halda səfirlik cavabında işğaldan azad olunmuş digər bölgələrdən bəhs etməkdədir. Əslində səfirlik "Ağdam, Zəngilan və Füzuli də daxil olmaqla Azərbaycanın bütün bölgələrinə səfərlər edib" deyərək növbəti dəfə və daha açıq formada Azərbaycanın ərazi bütövlüyünü sual altında qoyur. Belə çıxır ki, Amerika Şuşa, Hadrud və digər ərazilərin Azərbaycanın "bütün ərazilərinə" aid olmadığını düşünür və bunu dolayı yolla bu cür ifadə edir. Digər yandan səfirlər Şuşaya getməkdən imtina etməklə erməni separatizmini stimullaşdırmağa çalışırlar. Təsadüfi deyil ki, diplomatların Şuşaya getməkdən imtina etməsindən sonra erməni separatçılarının təmsilçiləri ard-arda ABŞ və Fransanın Azərbaycandakı səfirlərinin ünvanına təriflər yağdırırlar. Onu da qeyd edək ki, hazırda Azərbaycan ərazisində sülhməramlıları yerləşən Rusiyanın səfiri Şuşaya səfər etməklə Azərbaycanın ərazi bütövlüyünə dəstəyini nümayiş etdirib.

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ və Fransa müharibənin bitməsini və sülh müqaviləsinin imzalanmasını istəmir. Deputatın sözlərinə görə, bundan belə bir nəticə çıxartmaq olar ki, Ermənistan-Azərbaycan münaqişəsinin 30 il davam etməsinin səbəbkarları məhz həmin iki ölkə olub:** "ABŞ və Fransa səfirlərinin dəvətimizi qəbul etməməsi birinci növbədə Azərbaycana qarşı hörmətsizlikdir. Deməli, bu dövlətlər üçün beynəlxalq hüquq, ədalət boş şeydir. Onlar ancaq öz mənafelərinə və maraqlarına xidmət edən siyasət yürüdürlər. ATƏT-in Minsk qrupunun həmsədrləri kimi ABŞ və Fransa bu illər ərzində ədalətli mövqedən çıxış edərək Ermənistana təsir göstərsəydi, münaqişə çoxdan bitərdi. Müharibəyə ehtiyac qalmazdı. Hətta 44 günlük Vətən müharibəsi zamanı bu ölkələr BMT TŞ-də Azərbaycana qarşı qətnamə qəbul etmək istəyirdilər. Amma bizə dost ölkələr o zaman Azərbaycana qarşı qətnamənin qəbul olunmasını bloklamışdılar. Bu gündə ABŞ dövlət katibi Entoni Blinkenin ATƏT-in Minsk qrupuna yeni həmsədr təyin etdiyi haqqında da xəbərlər yayıldı. Amma Rusiyaya qarşı tətbiq olunmuş sanksiyalarla bağlı bu ölkə ilə eyni təşkilatda təmsil oluna bilməyəcəklərini də bildirmişdilər. Bu o deməkdir ki, faktiki Minsk qrupu yoxdur. Həm də biz ərazi bütövlüyümüzü təmin etməklə münaqişəni bitirmişik. Minsk qrupunun fəaliyyətini də "pensiyaya" göndərdiyimizi elan etmişik". Parlament üzvü qeyd edib ki, Cənubi Qafqazda sülhün yaranması Vaşinqton və Parisin siyasətinə, maraqlarına uyğun gəlmir: "Onlar regionda gərginliyin olmasının və özlərinin daima mövcudluğunun qorunmasının marağındadır. Azərbaycanın atdığı bütün addımlar beynəlxalq hüquqa və beynəlxalq konvensiyalara uyğundur. Ona görə də onlar məsələlərə birbaşa müdaxilə edə bilmədiyindən ancaq uzaqda dayanaraq xoşa gəlməyən belə hərəkətlərlə mövqelərini bildirirlər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "ABŞ-ın və Fransanın səfirləri Şuşaya niyə getmək istəmirlər" sualını bu cür cavablandırıb:** "Bu sualı adıçəkilən ölkələrdən birinin səfirinə, digərinin isə müşavirinə verməşəm. Cavablarından aydın olub ki, Şuşaya səfər etmək üçün hər iki səfir öz ölkələrinin rəsmilərinin icazəsini almalıdırlar. Belə bir icazə olmadığına görə, ABŞ və Fransa səfirləri Bakının Şuşaya səfər etmək dəvətindən hər dəfə imtina edirlər. Onda sual olunur: Vaşinqton və Paris niyə Azərbaycandakı səfirlərinin Şuşaya səfərlərinə icazə vermir? Görünür, bu, Şuşanın yerləşdiyi məkanla bağlıdır. Eyni səfirlər işğaldan azad olunan Ağdam və ya Füzuliyə səfərdən imtina etmirlər. Diplomatlar səfərdən imtina etməklə demək istəyirlər ki, bölgənin "statusu" müəyyənləşməlidir. Halbuki, İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyev dönə-dönə vurğulayıb ki, Qarabağla heç bir "status" verilməyəcək. Vaşinqton və Parisdəki dairələr erməni lobbisinin qəzəbindən ehtiyat edirlər. Hər iki səfir Şuşaya getsə, erməni lobbisi onların Xankəndinə enmələrini tələb edəcək, separatçılarla görüşə isə rəsmi Bakı icazə verməyəcək. ABŞ və Fransanın mənasız inadkarlığına baxmayaraq, bir müddət sonra hər iki ölkənin səfiri həm Şuşaya, həm də Laçına səfər edəcəklər. Başqa alternativləri yoxdur".

**ReAL Partiyasının sədr müavini Natiq Cəfərli Avropa Birliyi və ABŞ-ın Ermənistanı öz orbitlərində saxlamaq cəhdlərini anladığını deyib. Ekspert vurğulayıb ki, Paşinyanın da Kremldə qopmaq cəhdləri var:** "Amma ABŞ və Fransa indiki durumda bir tək Ermənistana xoş gələn addımlardan çəkinməlidir. Balansı qorumalı, Azərbaycan-Qərb münasibətlərinə xələl gətirməmək üçün daha strateji düşünməlidirlər. Ermənistanın Rusiyadan qaçmaq üçün yeganə yolu Azərbaycan və Türkiyə ilə yaxınlaşmasıdır, başqa yol yoxdur. Ermənistan bunu anlamağa başlayıb, Qərb də bu durumu bilir. Ona görə də müəyyən jestlərlə bu gün Ermənistanda yerləşbir olan Rusiya imicinin yerini tutmağa çalışır. Əgər belədirsə, danışıqlı oynamaq istəyirlərsə, bunun da yolları var. Təki sonda bölgəmizdə daimi və ədalətli sülh qurulsun. Ədalətli sülhün yolu isə Xankəndi və ətrafında yaşayan erməni əsilli azərbaycanlıların ölkəmizə inteqrasiyası, hansı ki, sosial-siyasi inteqrasiyasından keçir. Bu inteqrasiyanın qarşısında duran ən böyük maneə isə bölgədə müvəqqəti və hüquqi olaraq mandatsız yerləşən "rusməramlı" qüvvələrdir".

İsmayıl Qocayev

# Gələn il qlobal taxıl böhranı yaşanacaq

## Azərbaycan bütün imkanlarını səfərbər etməlidir



**Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra dərinləşən taxıl qıtlığı fonunda ölkələr yerli istehsalı daha çox artırmağa başlayıb.**

2022-ci ildə taxıl istehsalının artırılması və əkin sahələrinin genişləndirilməsi Azərbaycan üçün də prioritetdir. Ölkəmiz üçün ehtiyatların artırılması və idxalın əvəzlənməsi daha da aktuallaşmaqdadır. Artıq Azərbaycanda dənli və dənli paxlalı bitkilərin kütləvi biçini başa çatmaq üzrədir. Bu il 955 min hektardan çox sahədə dənli bitkilər əkilib və sahələrdən 2 milyon 850 min ton məhsul toplanıb.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib ki, Azərbaycan taxıla olan tələbin 60 faizini yerli istehsal və digər hissəsini idxal hesabına ödəyir. Deputatın sözlərinə görə, builki statistik rəqəmlər göstərir ki, gələn ildə də tələbin ödənilməsi üçün taxıl idxalı həyata keçirilməlidir:** "Taxıla olan tələbin tam ödənilməsi üçün yeni idxal mənbələrin tapılması və ehtiyatların artırılması aktual olaraq qalmaqdadır. Ötən il taxıl idxalımızda Rusiyanın payı 95 faizə yaxın idi. Bu il idxal balansımızda Qazaxıstanın payının müqayisəli olaraq artması müşahidə edildi. Son aylar taxıl istehsalçılarının ixracatı məhdudlaşdırması idxal mənbələrini xeyli dərəcədə azaldıb. Ukraynada əkin sahələrinin kəskin azalması da gələn il qlobal taxıl təminatına təsirsiz ötüşməyəcək. Bu baxımdan dünya bazarında taxılın qiymətinin gələn ildə də yüksələcəyi istisna edilmir. Ona görə də idxaldan asılılığın minimumlaşdırılması getdikcə daha da prioritetləşir".

İsmayıl



# Bütün ərazilər minalardan təmizlənəcək

## Laçında Azərbaycanın güc strukturları ciddi işə başlayacaq

**Laçın şəhəri, Zabux və Sus kəndlərində Azərbaycan Ordusunun hərbi polis bölmələrinin təhlükəsizlik fəaliyyətləri həyata keçirilir. Yaşayış məntəqələrində yeni qurulan stasionar və səyyar postlarda sutkalıq xidmət təşkil olunur.**

Nəzarət-buraxılış məntəqələrində patrul xidməti həyata keçirilir, obyektlər mühafizə olunur, əraziyə daxil olan texnikalar istiqamətlənir və müşayiət edilir. Kinoloji Mərkəzdə xüsusi təlim keçmiş cins itlərin cəlb edilməsilə ərazidə mina axtarış tədbirləri həyata keçirilir. Bundan əlavə mühəndis-istehkam bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində mina və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri yüksək peşəkarlıqla yerinə yetirilir. Əsas səylər yaşayış məntəqələrində kustar üsulla hazırlanan partlayıcıların və tələ minaların aşkar olunaraq zərərsizləşdirilməsinə yönəldilir. Mütəxəssislər də ermənilərin çıxdığı ərazilərin qarış-qarış minalardan və tələ partlayıcılardan təmizlənməsinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirirlər.

> Onlara əlavə vaxt, möhlət versək, Qarabağda başqa problemlərlə üzləşərik

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə ərazilərin minalardan tam təmizlənməsinin və bölgənin təhlükəsiz hala gəlməsinin bir qədər zaman aparacağını deyib.** Ekspert vurğulayıb ki, ermənilər 1992-ci ildə Laçını işğal etdikdən sonra rayonun ətrafında və digər ərazilərdə minalanma həyata keçiriblər: "Laçında Birinci Qarabağ müharibəsindən qalma mina və partlayıcılara yanaşı, sonradan basdırılanlar da var. Ötən günlərdə Azərbaycanın Müdafiə Nazirliyi faktlarla bütün dünyaya sübut etdi ki, 2021-ci ildə Ermənistanda istehsal olunmuş piyada əleyhinə minalar Laçına gətirilib və basdırılıb. Rusiya sülhməramlı kontingentinin orada olmasına baxmayaraq, ermənilər ərazilərimizi minalayıblar. Deməli, ruslar buna şərait yaradıblar. Yəni 44 günlük müharibədən sonra rus sülhməramlılarının nəzarətində olan ərazilərimiz ermənilər tərəfindən partlayıcılarla doldurulub. Ermənilər hər zaman düşmənçilik siyasəti güdüblər, daim əleyhimizə atılacaq addımlar barədə düşünüblər. Azərbaycanlılarla qonşuluq siyasətini bərpa etmək niyyətləri olmayıb. Atdıqları addımlarla bunu dəfələrlə isbatlayıblar. Məhz ermənilərin müharibə qanunlarına zidd cinayətkar əməllərinin nəticəsidir ki, savaş bitəndən sonra xeyli əsgər və zabitimiz, mülki şəxslərimiz minalardan ziyan görüblər. Ölənlər, ciddi xəsarət alanlar olub. Ancaq buna rəğmən, Azərbaycan dövləti gec-tez bütün əraziləri minalardan təmizləyəcək və təhlükəsizliyi tam bərpa edəcək".

**Laçın dəhlizinə alternativ yeni yolun fəaliyyətə başlamasından danışan polkovnik bildirib ki, əgər söhbət Azərbaycan-Ermənistan sərhədindən gedirsə, dövlətimizin sərhədlərini öz ordularımız, öz qurumlarımız qorumalıdır:** "Ermənistandan Azərbaycan ərazisinə keçən istənilən şəxs gömrük-sərhəd xidməti tərəfindən mütləq yoxlanmalıdır. 2020-ci ildə Laçın dəhlizini rus sülhməramlılarına həvalə etsək də, onlar özlərini doğrultmadı. Məndə olan məlumata görə, yeni yolun başlanğıcında Azərbaycan dövlətinin Sərhəd Xidmətinin əsgər və zabitləri yoxlamaları həyata keçirəcəklər. O cümlədən də Dövlət Gömrük Komitəsi yeni yola girişdə öz fəaliyyətini icra edəcək. Kimin bu məsələyə necə yanaşmasından asılı olmayaraq, rəsmi Bakı öz tələblərini diktə etməli və istəyinə nail olmalıdır. Düşünürəm ki, bu məsələdə son qərar avqustun 31-də Brüsseldə keçiriləcək görüşdə veriləcək. Çox qəribə davranırıq, sanki Azərbaycan ərazisində özümüzü "günahkar" kimi aparırıq, nədənsə ehtiyat edirik. Rusiya sülhməramlılarının Azərbaycana gətirilməsində məqsəd bölgənin təhlükəsizliyini qorumaq idi. Yəni ermənilərin yaramazlığının qarşısının alınması idi. Ancaq ötən iki il ərzində gördük ki, ruslar Qarabağa ermənilərin maraqlarını təmin etmək üçün gəliblər. Ruslara və ermənilərə yenidən əlavə vaxt, möhlət versək, Qarabağda başqa problemlərlə üzləşəcəyik. Yenə Qarabağa silah-sursat daşınacaq və girən-çıxan bəlli olmayacaq. Məsələni ən qısa zamanda həll etmək lazımdır".

İsmayıl Qocayev

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**



# Beynəlxalq təhsilə geniş pəncərə

## Azərbaycanda Beynəlxalq Maarif Məktəbləri açılır

**Yeni tədris ilindən etibarən Beynəlxalq Maarif Məktəbləri ilk dəfə olaraq Azərbaycanda fəaliyyət göstərəcək. Bununla bağlı keçirilən brifinqdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bildirib ki, yeni açılacaq məktəb iki ölkə arasındakı əlaqələrin, qardaşlığın dərinləşməsinə öz töhfəsini vermiş olacaq. Səfir xatırladıb ki, Maarif Vəqfi tərəfindən dünyanın 67 ölkəsində 429 təhsil müəssisəsi və 50 000-ə yaxın şagird təhsil alır: "Türkiyə dövlətinin təhsillə bağlı təcrübəsini daim başqa ölkələrlə paylaşmaq niyyətindəyik.**

İnanırıq ki, bu məktəb də digər təhsil müəssisələrimiz kimi öz sözünü deyə biləcək. Yaxın gələcəkdə bu təhsil ocağı ən yaxşı məktəblərdən olacaq. Artıq məktəbə şagird qəbulu üçün qeydiyyat da başlayıb". Bildirilib ki, yaxın günlərdə rəsmi açılışı olacaq 9 000 kvadratmetrlik geniş yaşıllıq sahəni əhatə edən təhsil müəssisəsi, iki mühafizə, bir inzibati və dörd tədris binalarından ibarətdir. Məktəb ağıllı lövhələrlə quraşdırılmış sinif otaqları, laboratoriyalar, emalatxanalar, idman zalı, konfrans zalı və yeməkxana ilə təmin olunub. Beynəlxalq Maarif təhsil standartına əsasən məktəbəqədər, ibtidai, orta və tam orta təhsil imkanları təklif edən təhsil müəssisəsində, əsas fənlər ilə yanaşı, dərsdənkənar məşğələlər də keçiriləcək. Məktəbdə STEAM, robotik kodlama, kompüter laboratoriyası kimi informasiya və texnoloji biliklərin təkmilləşdirilməsinə xidmət edən sahələrin tədrisinə xüsusi diqqət yetirilir. Ana dilində tədris imkanları təklif edən təhsil müəssisəsində türk, ingilis, rus və ispan dillərinin də akademik səviyyəyədək öyrədilməsi hədəflənir. "Azərbaycan Beynəlxalq Maarif Məktəbləri"ndə (ABMM) dərslər Azərbaycan kurikulumu və Beynəlxalq Maarif tədris Proqramına əsasən həyata keçiriləcək. Təhsil müəssisəsində Azərbaycan, xarici və Türkiyə ali təhsil müəssisələrinə müraciət zamanı imtahanlara uyğun proqramlar da təşkil olunacaq. Belə ki, IELTS/TOEFL/SAT kimi beynəlxalq dərəcəli sertifikat imtahanlarına uyğun dərslərin keçirilməsi əsas prioritetlərdən biri hesab olunur. Türk dilindən bilik səviyyəsi B2 olan şagirdlərə Türkiyədə təqaüdlə təhsil imkanları təklif olunacaq. Ümumilikdə isə Maarif məzunları Türkiyənin dövlət universitetlərinə daxil olduğu zaman təhsil haqqından tamamilə azad olur. Qeyd edək ki, Türkiyə Maarif Vəqfi 17.06.2016-cı ildə TBMM tərəfindən 6721 saylı qanunla qurulan və xaricdə Türkiyə Cümhuriyyəti adından təhsil müəssisələri açılması səlahiyyətinə malik dövlət qurumudur. Türkiyə Cümhuriyyətinin beynəlxalq təhsilə açılan pəncərəsi olan Beynəlxalq Maarif Məktəblərinin əsas istiqamətlərindən biri də şagirdlərə vətənpərvər, millətinə, bayrağına, dilinə sevgi və hörmətin aşılanması, onların intellektual bir şəxsiyyət kimi formalaşaraq, gələcək hədəflərinə sərbəst qərarlarla addımlamasını, insanların ortaq dəyərləri ilə Anadolunun hikmət ənənəsini və mədəniyyətini bir araya gətirməkdən ibarətdir.

**Təhsil eksperti, fəlsəfə doktoru Rafiq İsmayılov "Şərq"ə açıqlamasında Beynəlxalq Maarif Məktəblərinin Azərbaycanda fəaliyyətə başlamasını müsbət dəyərləndirdi:**

- Məlumdur ki, Türkiyə təhsili qabaqcıldır, müasir dünya trendləri ilə ayaqlaşır. Ümumiyyətlə, Türkiyədə təhsil sistemi çox yaxşı qurulub. Açılacaq yeni məktəblərdə təlim-tədris proqramına hazırda dünya üzrə ən çox tələbat olan fənlərə üstünlük verilməsi də bunu göstərir. STEAM, robotik kodlama, kompüter laboratoriyası kimi informasiya və texnoloji biliklərin mənimsənilməsinə üstünlük veriləcək. Dərslər Beynəlxalq Maarif tədris Proqramına əsasən həyata keçiriləcək. Sonrakı mərhələdə Azərbaycan, xarici və Türkiyə ali təhsil müəssisələrinə müraciət zamanı da imtahanlara uyğun proqramlar da təşkil olunacaq. Dərslər IELTS/TOEFL/SAT kimi beynəlxalq dərəcəli sertifikat imtahanlarına uyğun keçiriləcək. Bu, şagirdlərə əlavə üstünlüklər verir. Məsələn, türk dilindən bilik səviyyəsi B2 olan şagirdlərə Türkiyədə təqaüdlə təhsil imkanları təklif olunur. Bundan başqa "Maarif" məzunları Türkiyənin dövlət universitetlərinə daxil olduğu zaman təhsil haqqından tamamilə azad edilirlər. Bunlar hamısı Azərbaycan təhsilinin, azərbaycanlı balaların əvvəlcə yüksək səviyyəli ibtidai, sonra orta, daha sonra ali təhsil almaları üçün böyük imkandır. Hazırda dünyada öndə gedən ixtisaslar robotik kodlama, proqramlaşdırmadır. Sözsüz ki, Beynəlxalq Maarif Məktəbləri də bunu nəzərə alaraq Azərbaycana gəlir. Çox yaxşı, müsbət haldır ki, bu məktəblərin Azərbaycanda fəaliyyətinə "yaşıl işıq" yandırılıb. Bu məktəblər Azərbaycan təhsilinə yenilik və rəngarənglik gətirəcək. Təhsil belə də olmalıdır: rəngarəng və daim yenilənən. Çünki həyat bir yerdə dayanmır, daim hərəkətdədir, daim təzələnir, yenilənir. Hazırda dünya universitetlərində bilik yox, bacarıqlar yoxlanır. Xarici dil bilirsənmi, işini planlaşdırma qabiliyyətin necədir, işini necə avtomatlaşdırırsan, alqoritmik təfəkkürün necədir, kodlaşdıra bilirsənmi, texnoloji biliklərin hansı səviyyədədir...

*"Çox yaxşı, müsbət haldır ki, bu məktəblərin Azərbaycanda fəaliyyətinə "yaşıl işıq" yandırılıb. Bu məktəblər Azərbaycan təhsilinə yenilik və rəngarənglik gətirəcək"*

Robotik kodlaşdırma, bir növ proqramlaşdırmanın əsasıdır. Dünya universitetlərində hesab edirlər ki, bunları bilən insan digər fənləri onsuz da mənimsəyə biləcək. Əsas texnoloji biliklərə, insan nə dərəcədə yaradıcıdır, ona diqqət yetirilir və süni intellektə üstünlük verilir. Əvvəllər İstanbulda az qala hər addımda ingilis, fransız dili kursları önünə çıxardı. İndi isə kodlaşdırma kursları açılır. Müasirliklə ayaqlaşmaq mütləqdir. Gərək geri qalmayasan. Ümid edirəm ki, Beynəlxalq Maarif Məktəblərinin ölkəmizdə fəaliyyətə başlaması ilə Azərbaycan təhsili də dünya təhsilinə güclü bir şəkildə inteqrasiya edəcək. Bizim təhsilimiz də dünya təhsil sistemi ilə ayaqlaşacaq. Bu, bizim üçün böyük üstünlükdür. Gənclərin dünyanın qabaqcıl ali məktəblərinə yolu açılacaq. Nəticədə ölkəmiz müasir biliklərə yiyələnmiş istedadlı kadrlar əldə edəcək.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ermənistanda 4 minə yaxın əsirimiz var

## Bu günə qədər bu əsirlərlə bağlı bizə heç bir informasiya verilməyib

**Bu ilin ilk 6 ayı müddətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən 700 bioloji istinad nümunəsi, 90-cı illərdə baş vermiş döyüş əməliyyatlarında itkin düşmüş şəxslərin 303 ailə üzvündən toplanılıb.**

Bu barədə "Report"a BQXK Bakı Nümayəndəliyinin İctimaiyyətlə əlaqələr departamentindən məlumat verilib.

Qeyd edilib ki, bu nümunələr, mümkün ekshumasiya zamanı identikifasiyaya dəstək üçün istifadə edilə bilər. Proses ərzində, 47 ailə üzvünə psixo-sosioloji dəstək göstərilib.

**Beynəlxalq Qırmızı Xaç Komitəsinin bu sahədə gördüyü işləri dəyərləndirən sabiq millət vəkili, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədova "Şərq"ə açıqlamasında bildirib ki, biz bu komitənin fəaliyyəti ilə Birinci Qarabağ müharibəsi dövründən tanışıq:** "Nümunələrin götürülməsi və araşdırılmasına da böyük ehtiyac var idi. Çünki Ermənistanda 4 minə yaxın əsirimiz var. Bu günə qədər bu əsirlərlə bağlı bizə heç bir informasiya verilməyib. Onlar əsirlərlə, onlara göstərilən işgəncələrlə, münasibətlə bağlı dünyaya yalnız saxta məlumatlar ötürürlər. Bu da qarşı tərəfin insanlığa sığmayan xislətindən əl çəkmədiyini göstərir. Biz əsirlikdən qayıtmış şəxslərin sağlamlıq durumlarının da şahidi olmuşuq. Onların arasında həyatını itirənlər də kifayət qədərdir.

Bu sahədə BQXK-nin operativ iş aparmasına ehtiyac var. Onların bu barədə atdıqları addımları yüksək qiymətləndirirəm. 30 ildir ki, insanların gözləri yol çəkir, əsirlərdən bir xəbər ala bilmirlər. Bu səbəbdən komitənin fəaliyyətinin dinamikasının artacağına ümid edirəm".

**Çimnaz Şahlar**

# Elin-obanın and yeri...

## İbrahim Əliyev şəhidlik zirvəsini fəth etməklə, tay-tuşları arasında qəhrəmanlıq, mücahidlik məktəbi yaratdı

**Qoşun tək sıralanan qədim və möhtəşəm Naxçıvan torpağı min illərin, yüz illərin tarixin buz yaddaşını ölməz, qəhrəman şəhid oğulları ilə Vətən torpağının qəhrəmanlıq səlnaməsini təzədən yazır, Vətən sevgisinin, torpağa bağlılığın məktəbini yaradırlar. Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kəndinin şəhid oğlu İbrahim Əliyev haqqında eşidəndə, düşünəndə mərhum şair Mahir Səmədovun ölməz misraları yadıma düşdü:**

**Qayalar qardaşdı, göylər bacıdı,**
**Durub keşiyində bu sıra dağlar.**
**Doğmalıq hamının ehtiyacıdır,**
**Daşlar da kimsəsiz sırsıra bağlar.**



*Yazı Suqovuşan istiqamətində qəhrəmanlıqla şəhid olan Əliyev İbrahim Mustafa oğlunun əbədi xatirəsinə həsr olunur*

Əliyev İbrahim Mustafa oğlu (baş leytenant) 1997-ci 17 fevralda Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kəndində anadan olub. 2003-2011-ci illərdə Qabıllı kənd tam orta məktəbini bitirib. 2011-2014-cü ildə Heydər Əliyev adına Hərbi liseydə təhsil alıb. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb.

2018-ci ildə Ali məktəbi fərqlənmə diplomu ilə bitirib, şərəfli xidmətinə başlayır. 2020-ci ildə Suqovşan istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıqla şəhid olur. Doğma kəndi Qabıllı kəndində torpağa tapşırılıb. Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə Suqovuşan istqamətində gedən döyüşlərdə fərqləndiyinə görə orden, medallarla təltif olunub.

O, Kəngərlinin Qabıllı kəndində doğuldu, boya-başa çatdı, öncə məktəbdə müəllimlərinin hörmətini qazandı və sonra da elin-obanın and yerinə döndü. Şəhidlik zirvəsini fəth etməklə, tay-tuşları arasında qəhrəmanlıq, mücahidlik məktəbi yaratdı. Əlbəttə, Vətən, torpaq belə qəhrəman oğulları ilə həmişə başını uca tutur.

İbrahim Əliyev xidmət etdiyi dövrdə hərbi hissənin komandirinin bütün tapşırıqlarını ləyaqətlə yerinə yetirərək, hərbi hissənin də, əsgər yoldaşlarının da qəlbində ölməz xatirələrə dönüb. Hamı onun igidliyindən əsgər yoldaşlarına, komandirinə bir vətənpərvər kimi sadiqliyindən ilhamla danışırlar. O, hələ Qabıllı kəndində yaşadığı çağlarda elin-obanın sevimlisinə çevrilmişdi. Cavanlar arasında öz düşüncəsi, vətən, torpaq sevgisi ilə böyüklüyünü hiss edərdin. Ata-anasının nəsihətlərinin hamısını ləyaqətlə həyata keçirmişdi.

Durnalar payızda qürbətə üz tutanda, Kəngərlinin Qabıllı kəndinin üstündən dəstə-dəstə keçib, qatarlanıb, öz aralarında qürbət nəğməsi oxuyurlar. Vətəni, torpağı müvəqqəti tərk etmək durnalara da ağır gəlir. Baharda bir yaz çağı təzədən Vətən səmasına qalxıb, göy qurşağı ilə görüşüb, Vətənə, torpağa ruh yüksəkliyi ilə qayıdırlar, öz əziz canlarını Vətən torpağından əsirgəməyən şəhidlər də həmin o durnalara bənzəyir. Behişt, cənnət qapıları onların qədəmlərini intizarla gözləyib və sayılıb, seçilən Vətən oğullarına ölməz, tükənməz məkanında əbədi yer verirlər. İbrahim Əliyevin də ölməz müqəddəs ruhu Vətən səmasında göy qurşağının naxışlarına qoşulub, qədim Naxçıvanın Vətən səmasını rövnəqləndirir. Onun əziz ruhu doğulduğu kəndə, kəsəyə qayıdır, güllərə, çiçəklərə qoşulur və dağlara qalxır, dağları əzəmətli, vüqarlı göstərmək üçün

Qədim Naxçıvan torpağı tarixin bütün qanlı-qadalı sınaqlarından üzü ağ çıxıb. Azərbaycanın ayrılmaz bir qolu olan bu qədim torpaq İbrahim Əliyev kimi ölməz oğulları ilə fəxr edir. Bu torpaqda doğulan hər bir insan doğulduğu bu qədim məkanın təəssübünü çəkməyi özünün vətəndaşlıq borcu sayır. Azərbaycanla-Naxçıvan arasında tarixi köklər, körpülər bütün zamanların sınağından məharətlə çıxıb.

Zəfər səlnaməsinin 44 günü ölməz şəhidimizin də igidlik, qəhrəmanlıq səlnaməsini zaman-zaman yaşadacaq. Qabıllı kəndinin şəhid oğlu İbrahim Əliyevin keçib gəldiyi şərəfli ömür yolu daim onu sevənlərin, Vətən qeyrətini çəkən mərd oğulların qəlbində, düşüncəsində əbədi yaşayacaq.

İbrahim Əliyev kimi şəhidlər heç zaman ölmür. Onlar müqəddəs əbədi ruhlara qoşulub, təzədən Vətən torpağına qayıdırlar. Qayıdırlar ki, bu torpağı özlərinin al-qanları ilə laləzara çevirsinlər. Ölməzlik məktəbi yaratsınlar, şəhidlik zirvəsini daim ucaltsınlar

Az qalıb, bir azdan payız gələcək. Yaz üzünü pərvazlandıran qatar-qatar olan durnalar yenə qürbətə üz tutacaqlar. Vətən torpağında çinar tək ucalan şəhid məzarları ağ bir mayak kimi köçən durnaların yolunu işıqlandıracaq. Göy üzündə ağı deyən durna köçü, bir yaz çağı qatarlanıb, düz Qabıllı kəndinin üstündən ağı deyədeyə Vətən torpağına qayıdacaq. Durnalar qürbətdə qalmaz, ona görə ki, şəhid məzarları kimsəsiz qalar, onlar mütləq yenə qayıdacaqlar, şəhid ruhlarına qoşulub qayıdacaqlar, şəhid məzarlarına işıq salmaq üçün, onlar qayıtmasa, bu dünyanın məzarları ağlayar

**Vəli Səmədli,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Elan**

Şükürov Pərviz Əlibaba oğlunun adına Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, A.Əlizadə küç. ev 5, mən. 5 ünvanının 30.04.1992-ci il tarixli 11/41 saylı Qərar itdiyi üçün etibarsız sayılır.

"TLD" Məhdud Məsuliyyətli Cəmiyyətinin möhürü itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2487**

ŞƏRQ 30 avqust 2022-ci il № 154 (5676) (çərşənbə axşamı) Son səhifə

# Tələbləri sadələşdirmək lazımdır

## Övladlığa uşaq götürmək istəyən şəxslər çoxdur



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən bu il 150 uşaq övladlığa verilib. Onlardan 79-u oğlan, 71-i qızdır.**

Nazirlikdən bildirilib ki, övladlığa götürülmüş uşağın 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə ailədəki vəziyyəti, inkişaf səviyyəsinin öyrənilməsi üçün monitorinqlər aparılır. Bu il də 771 uşağın övladlığa verildiyi ailələrdəki vəziyyəti monitorinq edilib.

1 noyabr 2019-cu ildən etibarən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Bundan sonra övladlığagötürmə sahəsində elektron infrastruktur üzərində yeni müasir idarəetmə sistemi yaradılıb. Həmin vaxtdan 152-si oğlan, 146-sı qız olmaqla 298 uşaq övladlığa verilib. Bu il həmçinin reinteqrasiya tədbirləri nəticəsində 73 uşağın dövlət uşaq müəssisələrindən ailələrinə qayıdışına nail olunub.

**Sosioloq Lalə Mehralı hesabatda göstərilən rəqəmlərə münasibət bildirib. O, "Şərq"ə açıqlaması zamanı bildirib**

***Artıq yaşlı nəsil də dəyişib, onlar da övladlığa uşaq götürən gəncləri dəstəkləyir***

**ki, göstəricilər vəziyyətin yaxşı olduğundan xəbər verir:** "Amma övladlığagötürmə prosedurları daha da asanlaşdırılmalıdır. Çünki bu məsələdə iş asan olanda insanların aktivliyi də artır. Övladlığa uşaq götürmək istəyən şəxslər çoxdur. Lakin bu prosesin çətinliyi onları həvəsdən salır. Həmin insanlar zatən yorulmuş durumdadırlar. İllərdir övlad sahibi olmanın xəyalını qururlar. Son çarə olaraq övladlığa uşaq götürmək istəyirlər. Amma bu çox əngəlli bir məsələdir. Hətta buna bir neçə il sərf etmək lazım gəlir. Kriteriyaların bəziləri mənasızdır. Dövlətin bu addımları uşaqların təhlükəsizliyinin təminatı üçün atdığını bilirik. Qurum istəyir ki, yalnız əzmi və iradəsi olanlar övlad sahibi olsunlar. Lakin bəzi qaydaların insanların həvəsini, əzmini qıra biləcəyini də nəzərə almaq lazımdır. Ona görə tələblər nisbətən də sadələşdirilə bilər.

**L.Mehralının qənaətincə, artıq yaşlı nəsil də övladgötürmə prosesinə isti münasibət bəsləyir:** "Öncələr gənc ailələr dövlət müəssisələrindən övlad götürmək istəyən zaman ailə böyükləri buna razı olmurdu. Amma artıq onların da düşüncələri dəyişib və gəncləri dəstəkləyirlər. Fəqət proses bu qədər uzun və yorucu olanda onlar da fikirlərindən daşınırlar. Hesab edirəm ki, uşaqların təminatını maksimum həddə saxlamaq şərti ilə tələbləri yüngülləşdirmək lazımdır".

*Qeyd edək ki, ötən il Azərbaycanda 114 uşaq övladlığa verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatında qeyd edilib. Hesabata əsasən, övladlığa verilən uşaqların sayı 36 nəfər artıb.*

**Çimnaz Şahlar**

# Tənha adam həyatla vidalaşdı

## Bununla Tanaru xalqının soyqırımı tamamlandı



**Dünyanın ən yalnız insanı vəfat edib. "Şərq" NTV-yə istinadən xəbər verir ki, Amazon əsilli şəxs öz qəbiləsinin sonuncu üzvü və Rondoniya əyalətindəki Tanaru bölgəsinin yeganə sakini idi. Bu səbəbdən o, ən tənha insan olaraq tanınırdı.**

Məlumat üçün bildirək ki, Tanaru xalqının əhalisi 1970-ci illərdə müxtəlif hücumlar nəticəsində məhv edilib. Bölgədə həyatda qalan yeganə sakini həm də "dəlik adam" adlanırırdılar. Bunu onun öz ərazisi ətrafında dərin çuxurlar qazması ilə əlaqələndirirlər. "Dəlik adam" insanlarla ünsiyyətdən qaçdığı üçün onun haqqında çox az şey məlumdur. Əsl adı bilinməyən Amazon sakini haqqında 2018-ci ildə sənədli film də çəkilib. 50 yaşı olduğu təxmin edilən tənha sakin bu gün gözlərini əbədi olaraq yumub.

"Survival" adlı dərnəyin araşdırma və təbliğat direktoru Fiona Uatson açıqlamasında qeyd edib ki, onun ölümü ilə xalqının soyqırımı tamamlandı: "Çünki bu, doğrudan da soyqırım idi. Torpağa və sərvətə ac olanlar tərəfindən bütün əhali qəsdən məhv edildi. Onun həyatında hansı dəhşətlərin şahidi olduğunu və qəbiləsinin qalan hissəsini öldürdükdən sonra yaşadığı tənhalığını yalnız təsəvvür edə bilərik. O, bütün təmas cəhdlərinə qətiyyətlə müqavimət göstərdi və sadəcə tək qalmaq istədiyini açıqladı".

Amazon hindularına kömək etmək üçün yaradılmış İnsan Haqları üzrə Xalq Müşahidə Qrupu (OPI) yerli xalqların soyqırımının xatirəsi kimi Tanaru qoruğunun daimi olaraq qorunub saxlanması üçün beynəlxalq qurumlara müraciət edib.

**Çimnaz**





# Rəisi Baydenlə görüşdə maraqlı deyil

## "İran bacardıqca vaxt uzatmaq istəyir. O, bu zaman ərzində nüvə silahının fakt kimi qəbul olunmasına çalışacaq"

**İran Prezidenti İbrahim Rəisi Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyası zamanı ABŞ lideri Co Baydenlə hər hansı görüşü istisna edib və bunu "faydasız" adlandırıb.**

APA "Anadolu" Agentliyinə istinadən xəbər verir ki, o, bu barədə jurnalistlərə açıqlamasında deyib.

"Mən əvvəllər də buna "yox" cavabını vemişəm və bir daha təkrar edirəm və bildirirəm ki, bizim aramızda görüşməyin heç bir faydası yoxdur", Rəisi deyib.

Qeyd edək ki, İran Prezidenti İbrahim Rəisi ABŞ-ın Nyu-York şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının iclasında iştirak edəcək.

**İran Prezidentinin Co Baydenlə görüş barədəki fikirlərini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev qeyd edib ki, Rəisi ABŞ-ın konkret tələbləri olacağını anlayır:** "Bu tələblər daha çox nüvə silahı, nüvə yanacağının və daşıyıcı raketlərin əldə olunması və s. ilə bağlı olacaq. Bəzi məlumatlara görə, İran Şimali Koreyadan neft məhsulları əvəzinə raket daşıyıcıları alıb. Yəni rəsmi Tehran artıq ballistik raketlərə sahibdir. Sadəcə, nüvə enerjisini kifayət qədər zənginləşdirmək lazımdır. Bu isə an məsələsidir. İran bunu bir neçə gün və ya aya həll edə bilər.

Digər tərəfdən İran hakimiyyəti Barak Obama dövründəki kimi aldadılmaqdan çəkinir. Çünki həmin dövrdə ABŞ rəsmi Tehranla razılaşma əldə etdi. İran nüvə razılaşmasına əməl etsə də, sanksiyalar aradan götürülmədi. Böyük ehtimalla bu iki məsələ İran rəhbərliyini rəsmi Vaşinqtonla görüşdən uzaqlaşdırır. Düşünürəm ki, İran bacardıqca vaxt uzatmaq istəyir. O, bu zaman ərzində nüvə silahının fakt kimi qəbul olunmasına çalışacaq. Bundan sonrakı mərhələdə isə İran daha sərt dildə danışacaq və özünü Şimali Koreyaya oxşar tərzdə aparacaq".

**Çimnaz Şahlar**

# Bakının sürüşməyə meyilli zonaları bəllidir

## Hadisə təkcə təbii səbəblərdən deyil, həm də texnogen səbəblərdən baş verir

**"Paytaxtın Yasamal rayonu, Qurban Xəlilov küçəsində yamacda baş verən hadisə torpaq sürüşməsi deyil". Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev deyib. Onun sözlərinə görə, hadisəyə səbəb həmin ərazidə olan evlərin birində həyətin həddən artıq sulanması olub:**



"Bizim əməkdaşlar həmin əraziyə cəlb olunub və hadisəni analiz ediblər. İntensiv suvarma nəticəsində yamacın başındakı daş parçası yola düşüb. Artıq yol təmizlənib, heç bir problem yoxdu. Bir daha diqqətinizə çatdırmaq istəyirəm ki, Yasamal rayonunun Qurban Xəlilov küçəsindəki yamacda sürüşmə baş verməyib. Orada nə sürüşmə, nə də uçqun prosesinin potensialı yoxdur. Ərazi dayanıqlı vəziyyətdədir". Xatırladaq ki, dünən səhər saatlarında paytaxtın Yasamal rayonu, Qurban Xəlilov küçəsindəki yamacdan yola torpaq və qaya parçası tökülüb. Hadisə səhər saat 6 radələrində baş verib. Yasamal Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin əməkdaşları tərəfindən saat 07.42 radələrində ərazi torpaq və qaya parçalarından təmizlənib. Yerli əhali bunu torpaq sürüşməsi hesab etsə də, Geoloji Kəşfiyyat Xidmətinin rəisi narahatlığa əsas olmadığını, ərazidə torpaq sürüşməsi, uçqun üçün heç bir potensial olmadığını deyib.

***"İnsan amili həmişə müəyyən rol oynayır. Adını çəkdiyimiz ərazilərdə vaxtilə qanunsuz evlər tikilib, bəzi yerlərdə kanalizasiya suları hələ də əsas kollektora daxil edilmədən birbaşa axıdılır"***

**Hadisə ilə bağlı "Şərq"ə açıqlama verən Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli qeyd etdi ki, paytaxtın sürüşməyə meyilli zonaları bəllidir:**

- Bunlar Səbail rayonu, Teleqüllənin ətrafı, Şəhidlər Xiyabanı ərazisi, Bayıl qəsəbəsi, Badamdar qəsəbəsi, Bibi-heybət yolu, Zığ şossesi, Əhmədli yaylası, "Günəşli" qəsəbəsi ərazisidir. Məlumdur ki, bu ərazilərdə bir neçə dəfə torpaq sürüşməsi baş verib, yol çöküb. Evlər qəzalı vəziyyətə düşüb. Sürüşmə təhlükəsi olan ərazilərdə bir neçə il əvvəl bərkitmə işləri aparıldı, svaylar vuruldu. Bunlar sürüşmənin qarşısını müəyyən qədər alır. Lakin sürüşmə təkcə təbii səbəblərdən deyil, həm də texnogen səbəblərdən baş verir. İnsan amili həmişə müəyyən rol oynayır. Adını çəkdiyimiz ərazilərdə vaxtilə qanunsuz evlər tikilib, bəzi yerlərdə kanalizasiya suları hələ də əsas kollektora daxil edilmədən birbaşa axıdılır. Həyətyanı sahələr suvarılır, bunlar da yağış suları, qrunt suları ilə birləşdikdə torpağın alt qatını getdikcə yumşaldır, nəticədə sürüşmə baş verir. Bu məsələlər daim əlaqədar qurumların diqqət mərkəzində olmalıdır. Köhnə tikililərin su-kanalizasiya sistemi yoxlanmalıdır, baxılmalıdır ki, sular hara axır, hara toplanır. Daimi nəzarət olsa, gözlənilməz hallar da az baş verər. Əlbəttə ki, yolda çatların əmələ gəlməsi, yolun çökməsi təhlükədən xəbər verir. Bu hallar heç nədən baş vermir. Bir əsas, səbəb var, deməli. Hesab edirəm ki, yerli orqanlar, həmçinin cavabdeh qurumlar məsələylə ciddi maraqlanmalı, təhlükə yaradan amillər aradan qaldırılmalıdır.

**Məlahət Rzayeva**

# Azercell Süni İntellekt əsaslı Virtual Assistent xidmətini istifadəyə verir!

## Bundan sonra Azercell Telefon Mərkəzinə zəng edən abunəçiləri Aİcell adlı Virtual Assistent salamlayacaq

**Azercell ölkənin telekom bazarında ilk Telefon Mərkəzi Virtual Assistent xidmətini- Aİcell-i məmnuniyyətlə təqdim edir! Bu texnoloji yenilik Süni İntellekt əsasında çalışır və abunəçilərimizin müştəri təcrübəsini zənginləşdirmək üçün tərtib olunub.**




Xidmətin pilot mərhələsində Azercell Telefon Mərkəzinə zəng edən abunəçilərimizi Aİcell adlı Virtual Assistent salamlayacaq və müştərinin sual və istəyini öyrənərək zəngi operatora yönləndirəcək. Azercell tədricən Virtual Assistentin ünsiyyət funksiyalarını və xidmət imkanlarını genişləndirərək, abunəçi istəklərini daha fərdiləşdirilmiş şəkildə həll etmək üçün şərait yaradacaq.

Qeyd edək ki, səs emalı botları telekommunikasiya sənayesində texnoloji sıçrayış hesab olunur. Layihənin ən vacib və maraqlı aspektlərindən biri isə Virtual Assistentin Azərbaycan dilində tam spektrli xidmət göstərməsidir ki, bu isə öz növbəsində müştərilərə yeni təcrübə imkanları yaradacaq.

"Azercell Telekom" MMC "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə əsaslanaraq ölkədə innovativ həllər və rəqəmsal xidmətlərin tətbiqini davam etmək niyyətindədir.

# Zelenski cəsarətlənib

## Ukrayna savaşı uzun müddət davam edəcək

**Ukrayna və Rusiya arasında müharibənin üçüncü mərhələsi düşmən tərəfindən işğal edilmiş Xerson uğrunda döyüşlə bağlı olacaq. Ukrayna tərəfinin Xersonu öz nəzarətinə qaytarmaq üçün hər cür şansı var. Bu barədə ukraynalı jurnalist Arkadi Babçenko deyib. Jurnalistin sözlərinə görə, Ukrayna və Rusiya arasında müharibənin yeni mərhələsi qışa yaxın başlaya bilər.**

Onun sözlərinə görə, Rusiyanın genişmiqyaslı təcavüzünün birinci mərhələsi Kiyevin tutulması idi. Lakin düşmən uğursuz oldu: "İkinci mərhələ də başa çatdı. Mən bu mərhələni bütün Donbassın və cənubun eyni sürətlə işğalı, üstəlik, Odessaya eniş və Donetskin cənubdan Krımdan keçərək Dnestryanıya birləşdirilməsi cəhdi adlandırardım. Bu da Ukraynanın qələbəsi ilə bitdi". Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba da deyib ki, Krımda 2014-cü ildə başlayan müharibə bu yarımadanın azad edilməsi ilə Krımda bitəcək. Nazir qeyd edib ki, Putin bütün Avropaya müharibə elan edib. Sadəcə fərq ondadır ki, Rusiya Ukraynanı raketlərlə, tanklarla vurur, Avropanı isə artan qiymətlər və enerji "silahı" ilə hədələyir: "Biz bu mübarizədə eyni yoldayıq, Avropanı müdafiə edirik. Bu gün Kiyevi, mülki əhalinin həyatını xilas etməyin yeganə yolu Ukraynanı silahlandırmaqdır". Kuleba vurğulayıb ki, əgər Ukrayna Rusiyanın artilleriya qüvvələrinə zərbələr endirsə, müharibənin gedişi dəyişər".



**Aylardır davam edən savaşın nəticələrini "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu bildirib ki, Rusiya-Ukrayna arasında müharibə hələ uzun müddət davam edəcək. Analitikin fikrincə, Kiyev Krımda təşəbbüsü getdikcə daha çox ələ alır:** "Rus əhalisi Krımı tərk edir. Ukraynanın artan cəsarəti və Rusiyanın hücumlarının sürətlə azalması fonunda Prezident Vladimir Putin danışıqlar masasına qayıtmaq istəyini nümayiş etdirir. Unutmaq olmaz ki, Ukrayna böyük əsgər ehtiyatına malikdir.

***"Qərb ciddi şəkildə Ukraynaya hərbi, maliyyə və siyasi dəstək verərsə, Moskva danışıqlara vadar ola bilər"***

Ukrayna ordusu ciddi əks-hücum əməliyyatına başlamaq üçün lazım olan silahlara malikdir. Lakin Kiyevə yeni silahlar lazımdır. Qərb o silahları verəcəkmi? Bu məsələ qaranlıq qalır. Digər tərəfdən, Rusiyada Putini dəstəkləyənlər çoxdur. Deməli, Kreml də geri çəkilməyəcək. Odur ki, Rusiya-Ukrayna müharibəsinin tezliklə dayanacağını gözləmək qeyri-mümkündür. Qərb ciddi şəkildə Ukraynaya hərbi, maliyyə və siyasi dəstək verərsə, Moskva danışıqlara vadar ola bilər. Hələki bu, görünmür. Deməli, Ukrayna və Rusiyanın hər mənada böyük itkilərlə üzləşəcəyinin şahidi olacağıq".

**İsmayıl Qocayev**